

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 89 (23.000)

12 may 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 11-də Bakının Səbail rayonunda "Dinamo" otelinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Otelin baş meneceri Alberto Matos və dizayneri Linda Pinto burada aparılan əsaslı təmir-yenidənqurma işləri barədə Prezident İlham Əliyevə məlumat veriblər.

Dövlətimizin başçısı və xanımı otelin rəmzi açılışını bildirən lenti kəsiblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oteldə yaradılan şəraitlə tanış olublar.

Nəfis tərtibatla qurulan otelin interyeri müasirliyi ilə diqqəti cəlb edir. Burada aparılan yenidənqurma işləri nəticəsində qonaqların qalması, yüksək səviyyədə istirahət etməsi, vaxtlarını səmərəli keçirməsi üçün maksimum imkanlar yaradılıb. İdmançıların və atletlərin arenası olan bu məkan öz yeni konsepti ilə dinamik və müasir həyat tərzi axtaranlar üçün ideal bir məkandır.

Otellə tanışlıqdan sonra Azərbaycan Prezidenti kollektivlə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.



## Qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi olub



***Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində müsabiqə yolu ilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə qulluğa yeni qəbul olunan gənc əməkdaşların andiçmə mərasimi olub.***

Gənc əməkdaşlar miqrasiya orqanlarında qulluq keçərkən Azərbaycan Respublikasına sadiq olacaqlarına, Konstitusiyamıza və digər qanunlara ciddi əməl edəcəklərinə, insan hüquq və azadlıqlarına hörmətlə yanaşacaqlarına, qarşıya qoyulan vəzifələri vicdanla, qərəzsiz yerinə yetirəcəklərinə, intizamlı olacaqlarına, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına and içiblər.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev xidmətə yeni başlayan əməkdaşları təbrik edib, onlara uğurlar arzulayıb. Xidmət rəisi qurumun fəaliyyət istiqamətləri, əldə olunan nailiyyətlər və perspektiv planlar haqqında danışıb, gənc əməkdaşların qarşısında duran vəzifələrdən söhbət açıb.

Şahin Nəbiyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuş Dövlət Miqrasiya Xidmətində yüksək səviyyəli iş şəraitinin yaradıldığını, xidmət aparılması üçün müasir və şəffaf sistemin formalaşdırıldığını, yaradılan imkanların müqabilində əməkdaşlardan səmərəli fəaliyyət tələb olunduğunu deyib, miqrasiya orqanları əməkdaşlarının üzərinə böyük məsuliyyətin düşdüyünü bildirib. O qeyd edib ki, xidmətdə şəffaflıq, operativlik, nəzakətlilik və məsuliyyət prinsipləri əsas prioritetdir.

Sonra xidmətin gənc əməkdaşları Dövlət Bayrağı Muzeyindəki eksponatlarla tanış olublar.

Xatırladaq ki, bu il fevralın 20-22-də miqrasiya orqanlarına qulluğa qəbul olmaq istəyən namizədlər üçün test imtahanı, aprel ayının 16-18-də isə müsahibə mərhələsi keçirilib.

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi*

## "Çirkli pulların yuyulmasına qarşı tədbirlər" mövzusunda təlim

***Mayın 11-də Naxçıvan Biznes Mərkəzində Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublika üzrə İdarəsinin və "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycan Bank Tədris Mərkəzi tərəfindən "Çirkli pulların yuyulmasına qarşı tədbirlər" mövzusunda təlim keçirilib.***



Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bank qurumlarının nümayəndələrinin iştirak etdiyi təlimdə çıxış edən Azərbaycan Bank Tədris Mərkəzinin direktoru Cavanşir Abdullayev çirkli pulların mahiyyəti, onların qanunsuz dövriyyəsinə qarşı bank qurumlarının vəzifələri barədə ətraflı məlumat verib. Qeyd olunub ki, təlimin məqsədi Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bank əməkdaşlarının çirkli pulların yuyulmasına qarşı mübarizə tədbirləri üzrə Azərbaycan Respublikası qanunvericiliyinin tələbləri istiqamətində və mövcud beynəlxalq praktika üzrə biliklərin artırılmasından ibarətdir.

Təlim zamanı bank işçilərinə çirkli pulların yaranma mənbələri, belə pul gəlirlərinin qanunsuz dövriyyədən hər hansı bir qanunauyğun şəkildə yuyulmaya yönəldilməsi mərhələləri və son nəticədə, bunun vasitəsilə terrorçuluğun maliyyələşdirilməsi barədə mümkün ehtimallar haqqında danışılıb. Narkotik vasitələrin və silahların qanunsuz dövriyyəsi, insan alveri, saxtakarlıq, korrupsiya, rüşvət və Azərbaycan Respublikası qanunvericiliyinə əsasən cinayət yolu ilə əldə edilmiş digər vəsaitlərin bank əməliyyatları vasitəsilə qanuni dövriyyəyə daxil edilməsinin iqtisadiyyata vurduğu zərərlər haqqında məlumat verən təlimçi bildirib ki, bütün dünyada olduğu kimi, hazırda ölkəmizdə də belə qanunsuz əməllərə qarşı sərt mübarizə aparılır.

Bildirilib ki, ölkəyə xarici investisiyanın cəlb olunmasında, onun investisiya reytinqinin və müsbət imicinin yüksəldilməsində çirkli pulların yuyulmasına qarşı aparılan mübarizənin mühüm əhəmiyyəti vardır. Respublikamızda qüvvədə olan "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda göstərildiyi kimi, ölkəmizdə fəaliyyət göstərən banklar və Mərkəzi Bank yanında Maliyyə Monitorinq Xidməti şübhəli əməliyyatların aşkar edilməsində mühüm rola malikdir. Bu baxımdan pul ödənişlərinin elektron formada aparılması belə hallara qarşı mübarizənin gücləndirilməsində mühüm əhəmiyyətə malikdir.

Təlimdə beynəlxalq aləmdə çirkli pulların yuyulması üzrə yaranan risklərin qiymətləndirilməsi, yüksək riskli müştərilər üzrə əməliyyatların üzə çıxarılması, qanunsuz hesab olunan qeyri-adi əməliyyatlar üzrə nümunələr, belə əməliyyatlara rast gəlindikdə onların icrasının dayandırılması və baş vermiş hallara görə yaranan məsuliyyət barədə iştirakçılara ətraflı məlumat verilib, təqdimatlarla bağlı diskussiyalar aparılıb.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

✍ Əli CABBAROV

***Məşğulluq problemlərinin həll olunmasında hər il təşkil edilən əmək yarmarkalarının böyük rolu var. Bu məqsədlə muxtar respublikada fəaliyyət göstərən məşğulluq orqanları tərəfindən əvvəlcədən işəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.***

## Məşğulluğun təmin olunmasında əmək yarmarkalarının rolu böyükdür

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, 2018-ci ilin aprel ayında keçirilmiş əmək yarmarkalarında 177-si özəl sektor olmaqla, 270 idarə, müəssisə və təşkilatdan 1753 boş iş yeri təqdim edilib. Təqdim olunmuş boş iş yerlərindən 463-ü fəhlə, 1189-u qulluqçu, 101-i xidmət sahələrinə aid olub. Boş iş yerlərindən 1442-si dövlət, 177-si qeyri-dövlət müəssisələrinin payına düşüb. Yarmarkalarda 212 nəfər, o cümlədən 134-ü dövlət, 78-i isə özəl sahədə işlə təmin olunub. Onlardan 206 nəfəri fəhlə, 6 nəfəri isə xidmət sahələrinə göndərilib. Gənclərin, qadınların və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin olunmasına da ciddi önəm verilib. İşlə təmin olunanların 55 nəfərini 29 yaşadək gənclər, 5 nəfərini sağlamlıq imkanları məhdud olan şəxslər, 33 nəfərini isə qadınlar təşkil edib.

Əmək yarmarkalarında kənd xidmət mərkəzlərinin kadrlarla təmin olunması da diqqət mərkəzində saxlanılıb. Naxçıvan şəhərinin Tumbul kəndində 1 dərzi, Qaraçuq kəndində 1 bərbər, Şərur rayon Muğancıq-Mehrab kəndində 1 bərbər-manikürçü, Kürkənd kəndində 1 bərbər, Daşarx kəndində 1 bərbər, Ordubad rayon Biləv kəndində 1 bərbər-manikürçü, ümumilikdə, 6 nəfər kənd xidmət mərkəzlərində fəaliyyət göstərən bərbər, gözəllik salonu və dərzi sexlərində işlə təmin olunub.

Keçirilmiş əmək yarmarkalarının yekunlarının təhlili göstərir ki, Naxçıvan Şəhər Məşğulluq Mərkəzi tərəfindən 25, Şərur Rayon Məşğulluq Mərkəzi tərəfindən 41, Babəkdən 27, Ordubaddan 26, Culfadan 31, Şahbuzdan 15, Kəngərlidən 35, Sədərəkdən isə 12 nəfər müxtəlifyönümlü işlərə göndərilib, ümumilikdə, 10 nəfər peşə hazırlığı kurslarına cəlb edilib. Həmçinin Culfa Rayon Məşğulluq Mərkəzi tərəfindən Bənəniyar, Kəngərli Rayon Məşğulluq Mərkəzi tərəfindən Qarabağlar, Xok və Yurdçu kənd xidmət mərkəzlərində vakant olan yerləri kadrlarla təmin etmək üçün 4 nəfər bərbər-manikürçü kursuna cəlb olunub.

Məşğulluq mərkəzləri tərəfindən yarmarkalara təqdim edilən, lakin tutulmamış boş iş yerlərinə işaxtaran vətəndaşların göndərilməsi bundan sonra da diqqət mərkəzində saxlanılacaqdır.

**Xəbərlər şöbəsi**

## Culfa gömrük-buraxılış məntəqəsi 24 saatlıq iş rejiminə keçib

Bununla bağlı razılıq 2017-ci ilin dekabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun İran İslam Respublikasına rəsmi səfəri və Tehranda keçirdiyi yüksək səviyyəli görüşlər zamanı əldə olunub.

Qəbul edilmiş qərara əsasən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasındakı Culfa-Culfa sərhəd gömrük-buraxılış məntəqəsi mayın 10-dan etibarən 24 saatlıq iş rejiminə keçirilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov İranın Şərqi Azərbaycan Vilayətinin Gömrük İdarəsinin rəisi Əliəsgər Abbaszadənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb və qarşılıqlı əməkdaşlıq əlaqələrini müzakirə ediblər. Tərəflər ağırtonnajlı yük maşınlarının gediş-gəlişi zamanı yaranan çətinliklərin aradan qaldırılması, müəyyən olunmuş normalar əsasında vətəndaşların çətinliklərlə üzləşmədən sərhəd gömrük-buraxılış məntəqələrindən rahat gediş-gəlişlərinin təmin olunması məsələləri ətrafında da fikir mübadiləsi apardılar.

Görüşdə qeyd olunub ki, 24 saatlıq iş rejiminə keçidlə bağlı növbəli iş rejimi təşkil olunub, sərhəd gömrük-buraxılış məntəqələrində fəaliyyət göstərən müvafiq strukturlar yeni iş rejiminə uyğunlaşdırılıb. Sutkalıq iş rejiminə keçid Culfa-Culfa sərhəd gömrük-buraxılış məntəqəsindən istifadənin daha da yaxşılaşmasına, yüklərin fasiləsiz daşınmasına, xarici ticarət dövriyyəsinin artmasına, tranzit imkanlardan daha geniş istifadəyə şərait yaradacaq.

*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti*

İcmal

## Ulu öndərin gələcəyə hesablanmış strateji inkişaf konsepsiyasının sədaqətlə həyata keçirilməsi Naxçıvanı hərtərəfli tərəqqiyə qovuşdurub



***Azərbaycan dövlətinin memarı, qurucusu, xilaskarı və əbədiyaşar lideri, milli ideyanı milli gerçəkliyə və tarixi taleyə çevirən görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyəti, Onun Vətənə sədaqət nümunəsi olan şərəfli həyatında qədim Azərbaycan torpağı Naxçıvana bağlılığı, tükənməz məhəbbəti və ardıcıl qayğısı gələcək nəsillər üçün örnəkdir. 1990-1993-cü illərdə Naxçıvanda yaşayan, Ali Məclisin Sədri vəzifəsində çalışan dahi şəxsiyyət bu diyarı təkcə təhlükələrdən xilas etmədi, həm də siyasi məktəbinin layiqli məzunlarını yetişdirdi, onlara böyük əhəmiyyətə malik gələcəyə hesablanmış strateji inkişaf konsepsiyasını ərməğan etdi. Məhz bunun nəticəsində hazırda Naxçıvan Muxtar Respublikası tərəqqi dövrünü yaşayır.***

Ümummilli liderin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikada vaxtilə böyük problemlərin mövcud olduğu sahə hesab edilən dəmir yolu infrastrukturu da inkişaf etdirilib. Çünki ölkələr və bölgələrarası mal dövriyyəsinin həcminin artdığı bir dövrdə dəmir yolu nəqliyyatı hər bir məkanın inkişafının təkanverici elementlərindən birinə çevrilir. Bu mənada, istənilən diyarın geosiyasi və geoiqtisadi mövqelərinin gücü, sosial-iqtisadi inkişafı həm də onun nəqliyyat sisteminin, həmçinin dəmir yolu nəqliyyatının inkişafından asılıdır. Məhz elə buna görə də Naxçıvanda dəmir yolu sisteminin tərəqqisinin daim diqqət mərkəzində saxlanılması prioritet məsələlərdən biridir. Bu gün muxtar respublikada aparılan quruculuq işləri dəmir yolu sistemini də əhatə edib, sərnişin vağzalı binaları, inzibati və texniki binalar yenidən qurulub, müasir dəmir yolu infrastrukturu, hərtərəfli iş və xidmət şəraiti yaradılıb. İnfrastrukturun daim yenilənməsi, xidmətin səviyyəsinin yüksəldilməsi bu nəqliyyat növündən istifadə edənlərin sayını artırıb.

Dəmir yolu təsərrüfatında aparılan quruculuq işlərinin davamı olaraq Ordubad sərnişin vağzalı və yol sahəsi üçün yeni inzibati, eləcə də yol fəhlələri üçün yeni binalar tikilib, stansiyanın İdarəetmə Mərkəzi, yük anbarı və yarımstansiya binası əsaslı şəkildə yenidən qurulub. Aprelin 2-də "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Ordubad dəmiryol stansiyası kompleks quruculuq işlərindən sonra istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov açılış tədbirində iştirak ediblər.

Ali Məclisin Sədri Ordubad dəmiryol stansiyasının və yeni sərnişin vaqonlarının istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirib, bu münasibətlə dəmiryolçuları və istifadəçiləri təbrik edib. Ali Məclisin Sədri deyib: ***"Bu gün ulu öndərin yolunun ölkə Prezidenti tərəfindən uğurla davam etdirməsinin nəticəsidir ki, Azərbaycanda bütün sahələr inkişaf etdirilir. Bu inkişaf dəmir yolu nəqliyyatını da əhatə etmişdir... Blokada şəraitində olmasına baxmayaraq muxtar respublikada da dəmir yolu təsərrüfatı qorunub saxlanılmaqla yanaşı, həm də inkişaf etdirilir. "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə inkişaf Proqramı" muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına təkan vermişdir. Hazırda muxtar respublikada daxili yük və sərnişin daşınmalarının həyata keçirilməsində dəmir yolunun imkanlarından geniş istifadə olunur. Bu da sakinlər və iş adamları tərəfindən məmnunluqla qarşılanır. Bütün bunlar isə həm proqramın uğurlu icrasının, həm də Naxçıvan dəmiryolçularının fədakar əməyinin nəticəsidir".***

Həmin gün muxtar respublikanın dəmir yolu təsərrüfatına daha bir qayğının ifadəsi kimi 8 yeni sərnişin vaqonu təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov yeni sərnişin vaqonlarına baxıblar.

İran İslam Respublikasının Şərqi və Qərbi Azərbaycan vilayətləri ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında mövcud əlaqələr gündən-günə genişlənir. Hazırda nəqliyyat, təhsil, iqtisadi-ticarət, energetika, gömrük, dəmir yolu və digər sahələrdə uğurlu əməkdaşlıq var. Naxçıvan-Təbriz-Məşhəd-Naxçıvan beynəlxalq sərnişin qatarının və avtobus marşrutlarının fəaliyyət göstərməsi, İrandan olan tələbələrin Naxçıvanda təhsil alması, qarşılıqlı gediş-gəlişin artması əməkdaşlığın genişlənməsindən xəbər verir. Elm və informasiya mərkəzi olan Naxçıvan şəhərinin bu il İslam Mədəniyyətinin Paytaxtı, Təbriz şəhərinin isə İslam Dünyasının Turizm paytaxtı olması mədəniyyət və turizm sahələrində münasibətlərin daha da inkişaf etdirilməsinə şərait yaradır. Yüksək səviyyəli qarşılıqlı səfərlər zamanı əlaqələrin inkişaf perspektivlərinin diqqət mərkəzində saxlanılması isə bir sıra sahələrdə münasibətlərin yüksələn xətt üzrə inkişaf edəcəyinə zəmanət verir. Aprelin 6-da İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin Naxçıvan Muxtar Respublikasına səfəri bu baxımdan əhəmiyyətlidir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif ilə görüşüb.

Ali Məclisin Sədri xalqlarımız arasında mehriban münasibətlərin olduğunu diqqətə çatdırıb, bunu qarşılıqlı əlaqələrin göstəricisi kimi dəyərləndirib, münasibətlərin bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirib. Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Aprelin 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif Naxçıvan Dövlət Universitetində olublar.

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən biri də gənclərin sosial problemlərinin həlli və onların mənzil şəraitinin yaxşılaşdırılmasıdır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi bu il ölkəmizin Gənclər Paytaxtı olan Naxçıvan şəhərində yeni yaşayış kompleksi – "Gənclər şəhərciyi" inşa edilib. Aprelin 7-də həmin yaşayış kompleksi istifadəyə verilib.

Ali Məclisin Sədri açılış tədbirində iştirak edib, 2014-cü ildə təməli qoyulan "Gənclər şəhərciyi" yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edib, bu işdə əməyi olanlara və təşkilatçılara təşəkkürünü bildirib. Ali Məclisin Sədri deyib: ***"O ölkə inkişaf edir ki, orada dövlət-xalq birliyi vardır. Bu gün Naxçıvan şəhərində "Gənclər şəhərciyi" yaşayış kompleksinin istifadəyə verilməsi də dövlət-xalq-sahibkar birliyinin nəticəsidir. Eyni zamanda yeni yaşayış kompleksi ölkəmizdə həyata keçirilən dövlət-gənclər siyasətinin bəhrəsidir. İnsan həyatında ən vacib məsələlərdən biri onun mənzil sahibi olmasıdır. Yaşayış kompleksində gələcəyimiz olan gənclərin mənzillə təmin olunması onların rahat yaşayışını təmin edəcəkdir. Çünki rahat yaşayış şəraiti rahat həyat deməkdir. Dövlətimiz tərəfindən gənclərin mənzil şəraitinin yaxşılaşdırılması və işlə təmin olunması, onlara güzəştli ipoteka kreditlərinin verilməsi sahəsində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".***

Qeyd edək ki, çox sayda gənc ailə artıq bu yaşayış kompleksində mənzil sahibi olub. Naxçıvan şəhərinin Əziz Əliyev prospektində yerləşən həmin kompleksdə mənzillər gənc ailələrə güzəştli ipoteka yolu ilə verilir. Bu, muxtar respublikamızda insan amilinə, həmçinin gələcəyimiz olan gənclərə verilən yüksək qiymətin daha bir ifadəsidir.

Açılış tədbirində Ali Məclisin Sədri "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin kreditləri hesabına mənzil alan sakinlərə açarları təqdim edib, onlara rahat və firavan həyat arzulayıb.

Muxtar respublikada sahibkarlıq fəaliyyətinin inkişafına göstərilən diqqət və qayğı müasir texnologiyalara əsaslanan yeni istehsal sahələrinin yaranmasına səbəb olub. Bu çərçivədə aprelin 9-da Naxçıvan şəhərində "Miraj Gold" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılan qızıl və gümüş zinət əşyaları hazırlayan fabrik istifadəyə verilib. Zinət əşyaları müəssisəsinin istifadəyə verilməsi istehsalçıların fəaliyyətinin stimullaşdırılması, yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilən tədbirlərin davamıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında investisiyaların təşviqi ilə bağlı tədbirlər haqqında" Fərmanına uyğun olaraq istehsal sahəsinin fəaliyyətinin stimullaşdırılması məqsədilə İtaliya və Almaniyadan idxal edilən avadanlıqlara investisiya təşviqi sənədi verilib, müəssisənin fəaliyyəti üçün lazımi şərait yaradılıb. Bu müəssisə muxtar respublikada zinət əşyalarına olan tələbatı daxili imkanlar hesabına ödəməyə imkan verir. Burada zinət əşyalarından başqa, dövlət sifarişləri də yerinə yetirilir, muxtar respublikanın fəxri adlarının döş nişanları burada hazırlanır. Zinət əşyaları istehsalı müəssisəsinin yaradılması muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsinin göstəricisidir. Onun fəaliyyətə başlamasının digər bir əhəmiyyəti isə budur ki, muxtar respublikada vaxtilə zinət əşyaları hazırlayan ustalar olsa da, hazırda onların sayı çox azdır. Yəni varisliyin təmin olunmaması zamanla bu sənətin unudulmasına gətirib çıxarıb. 35 nəfərin işlə təmin olunduğu müəssisənin yaradılması və buraya mütəxəssislərin cəlb edilməsi həm zinət əşyalarının hazırlanması üzrə varisliyi təmin edəcək, həm də bu sənət muxtar respublikada yeni inkişaf dövrünə qədəm qoyacaq. Onu da qeyd etmək lazımdır ki, bu, yalnız inkişaf etmiş diyarlara xas olan bir sahədir. Çünki insanların gəlirlərinin az olduğu heç bir yerdə zinət əşyalarına tələbat olmur. Ali Məclis Sədrinin dediyi kimi: ***"Bu müəssisələr o yerdə yaradılır ki, orada sabitlik, inkişaf, dövlət qayğısı və bazar olsun. Hazırda muxtar respublikada özəl bölmənin inkişaf etdirilməsi üçün həm sabitlik, həm də dövlət qayğısı və bazar mövcuddur".***

Müstəqil respublikamızda demokratik seçki sisteminin yaradılması seçkilərin ədalətli və şəffaf şəraitdə keçirilməsinə, mövcud sabitlik və inkişaf isə insanların seçkilərdə fəal iştirakına imkan verir. Bu baxımdan aprelin 11-də keçirilən prezident seçkiləri seçicilərin fəallığı ilə yadda qalıb. Muxtar respublikamızda 7 seçki dairəsi üzrə 316 seçki məntəqəsində keçirilən seçkilərdə həmin seçki dairələrində qeydə alınmış seçicilərdən 222 min 895 nəfəri, yəni seçicilərin 82,3 faizi seçkilərdə iştirak edib.

Aprelin 11-də Ali Məclisin Sədri ailə üzvləri ilə birlikdə 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin Heydər Əliyev adına tam orta məktəbdə yerləşən 4-15 saylı seçki məntəqəsində səs verib. Sonra Ali Məclisin Sədri seçki prosesinin gedişi ilə maraqlanıb.

Naxçıvanda tarixi-mədəni irsimizə, İslam mədəniyyətinin nümunələrinə daim hörmətlə yanaşılır, min illərin yadigarı olan həmin abidələr bərpa olunur, qorunub yaşadılır, gələcək nəsillərə çatdırılır. Nehrəm İmamzadəsində bərpa işlərinin aparılması da bu sahədə görülən işlərin davamıdır.

Aprelin 14-də Ali Məclisin Sədri Nehrəm kəndinə gəlib, İmamzadədə aparılan bərpa işləri ilə tanış olub. Ali Məclisin Sədri muxtar respublikada İslam tarixinin bir hissəsi olan imamzadələrin bərpa olunduğunu diqqətə çatdırıb, onların yaranma tarixlərinə nəzər salıb, imamzadələrin əsrlərdən bəri ziyarətgah və inanc yeri kimi fəaliyyət göstərdiyini bildirib, Nehrəm İmamzadəsinin tarixi abidə və ziyarətgah kimi qorunub saxlanması, İmamzadə haqqında bələdçi mətninin hazırlanması barədə tapşırıqlar verib.

Əvvəldə qeyd etdiyimiz kimi, muxtar respublikamızda yol infrastrukturu gücləndirilib, bu sahədə idarəçilik sistemi böyük inkişaf yolu keçib, yol təsərrüfatının yenidən qurulması istiqamətində kompleks tədbirlər görülüb. Müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi və onun tabeliyində olan Yol İstismar idarələrinin maddi-texniki bazası möhkəmləndirilib, yol çəkilişində istifadə üçün müxtəlif təyinatlı 38 texnika alınıb. Həmçinin bu il yeni yol-tikinti texnikalarının alınıb gətirilməsi nəzərdə tutulur. Hazırda keyfiyyətli asfalt istehsalını həyata keçirmək üçün müasir asfalt zavodu qurulur. Yaxşı iş şəraiti, müasir texnika və keyfiyyətli asfalt təminatı avtomobil yollarının keyfiyyətlə çəkilməsinə və uzun müddət istismarına imkan verəcəkdir. Görülən bu tədbirlərin davamı olaraq aprelin 17-də Avtomobil Yolları Dövlət Agentliyinin yeni inzibati binası istifadəyə verilib.

Ali Məclisin Sədri Avtomobil Yolları Dövlət Agentliyinin yeni inzibati binasına və agentlik üçün alınan yeni texnikalara baxıb, onlardan səmərəli istifadə olunması barədə tapşırıqlar verib.

Aprelin 25-də "Duzdağ" otelində yaradılan Naxçıvan Duz Muzeyi istifadəyə verilib.

Ali Məclisin Sədri Naxçıvan Duz Muzeyinin istifadəyə verilməsini mühüm hadisə kimi dəyərləndirib, bu münasibətlə tədbir iştirakçılarını və gələcək ziyarətçiləri təbrik edib.

Müasir dövrdə bir bölgənin tanıdılmasında muzeylər müstəsna rol oynayır. Çünki belə mədəniyyət müəssisələri insanlarda maraq yaradır, onlarda bölgənin tarixi keçmişi haqqında təsəvvür formalaşdırır, ən əsası isə ziyarətçilərə daha geniş araşdırma aparmaq, elmi ədəbiyyata yönəlmək, daha çox tarixi məkanlarla tanış olmaq hissləri aşılayır. Məhz buna görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Duz Muzeyinin yaradılması böyük əhəmiyyətə malikdir. Bu, həm Naxçıvanın təbliği baxımından önəmlidir, həm də xalqımızın tarixinə, mədəniyyətinə, milli-mədəni dəyərlərinə göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Belə bir muzeyin yaradılması Naxçıvanı nəinki Cənubi Qafqazda, ümumilikdə, postsovet məkanında unikal ünvanlardan birinə çevirəcək.

İnsan həyatı üçün vacib olan amillərdən biri və başlıcası sağlam ekoloji mühitin yaradılmasıdır. Muxtar respublikada keçirilən iməciliklər, təbiətin qorunması və yaşıllıqların genişləndirilməsi sahəsində görülən işlər də bu məqsədə xidmət edir. Bu ilin yaz əkini mövsümündə Naxçıvanda 170 hektardan artıq sahədə meyvə bağı və yaşıllıq zolaqları salınıb. Aprelin 28-də muxtar respublikada növbəti iməciliklər keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iməcilikdə iştirak edib, yeni tinglər əkib. Ali Məclisin Sədri muxtar respublikada bərpa əkinlərinin davam etdirilməsi, əkin üçün yararlı olmayan torpaq sahələrində meyvə və üzüm bağlarının salınması barədə tapşırıqlar verib.

Ötən ayın ümumi mənzərəsinə nəzər yetirdikdə bir daha ulu öndər Heydər Əliyev siyasi kursuna böyük sədaqətin, milli dövlətçiliyə, millimənəvi dəyərlərə sıx bağlılığın, vətənpərvərliklə həyata keçirilən möhtəşəm işlərin, insan amilinə verilən yüksək qiymətin şahidi oluruq. Dahi şəxsiyyətin müəyyənləşdirdiyi inkişaf strategiyasına əsaslanan alternativsiz siyasi xətt bu gün də Naxçıvan Muxtar Respublikasının yüksəlişini təmin edir, bütün dövlət proqramlarının, infrastruktur layihələrinin reallaşdırılması ictimai-siyasi, sosial-iqtisadi sahələrdə mühüm nailiyyətlərin əldə edilməsinə rəvac verir. Azərbaycanın tarixi dövlətçilik ənənələrinin saxlanc yeri olan qədim diyarımızda həyata keçirilən praqmatik siyasət yüksək qarantı rolunda çıxış edir, iqtisadi yüksəlişin davamlı xarakter almasına yol açır. Nəticədə, muxtar respublikamız ildən-ilə, aydan-aya deyil, gündən-günə inkişaf edir. Bu isə məhz ulu öndərimiz Heydər Əliyevin arzularındakı Naxçıvandır. Qurucu Rəhbərin abadlaşdırdığı, bütün sahələr üzrə təhlükəsizliyini tam təmin etdiyi sabitlik və inkişaf adası Naxçıvan.

**Rauf KƏNGƏRLİ**

*Muxtar respublikamızda digər sahələrdə olduğu kimi, səhiyyənin inkişafı ilə bağlı həyata keçirilən islahatlar da öz bəhrəsini verir. Müasir səhiyyə sisteminin formalaşması istiqamətində bacarıqlı, yüksəkixtisaslı tibbi kadrların hazırlanması, səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni müəssisələrin yaradılması, ən müasir tibbi avadanlıqların alınması kimi əhəmiyyətli işlər görülür. Düşmənin beşaddımlığında yerləşən Sədərək rayonunun əhalisinin nümunəvi səhiyyə xidməti ilə təmin olunması, buradakı səhiyyə ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi də sərhəd bölgəsinə göstərilən dövlət qayğısının əyani ifadəsidir.*

*Səhiyyə*

# İcbari tibbi sığortanın tətbiqi uğurla həyata keçirilir



Sərhəd bölgəsinə göstərilən qayğının digər bir nümunəsi isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” 2017-ci il 3 may tarixli Fərmanıdır. Həmin fərmana əsasən bu il yanvar ayından etibarən icbari tibbi sığortanın muxtar respublikada ilk dəfə olaraq Sədərək rayonunda tətbiqi uğurla həyata keçirilir. Yanvarın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərlə maraqlanıb. Ali Məclisin Sədri Sədərək rayon sakinləri ilə görüşü zamanı onları bu münasibətlə təbrik edib, bunu əhəmiyyətli hadisə kimi qiymətləndirərək deyib: ***“İcbari tibbi sığorta dünyanın inkişaf etmiş ölkələrinin səhiyyə sistemində tətbiq olunur. Azərbaycanda bu sistemin tətbiqi ölkəmizin inkişaf göstəricisidir. Bütün bunlar Azərbaycanda uğurla davam etdirilən Heydər Əliyev yolunun bəhrələridir”.***

Ötən dövrdə bu məqsədlə bir sıra tədbirlər görülüb, rayon Mərkəzi Xəstəxanasında müasir avadanlıqlar quraşdırılıb. Yeni sistem ən müasir tələblərə uyğun qurulub, onun tətbiqi üçün həkimlər təyin olunub. Ötən müddət ərzində Sədərək rayonunda bu sahədə təcrübə qazanılıb. Həm sakinlər, həm də səhiyyə işçiləri yeni sistemin tətbiqindən razıdırlar.

Qeyd edək ki, Sığortaolunanlara İcbari Tibbi Sığorta Şəhadətnaməsinin verilməsi məqsədilə 10 min ədəd plastik kart alınıb. Muxtar respublikada icbari tibbi sığortanın elektron qaydada həyata keçirilməsi üçün *its.naxcivan.az* internet saytı və “Səhiyyə informasiya idarəetmə sistemi” yaradılıb. Saytda onlayn sığortalanma, müraciət və qeydiyyat bölmələri istifadəyə verilib. Bu da əhalinin internet üzərindən birbaşa elektron qaydada sığortalanmasına, qeydiyyatdan keçməsinə və onlayn müraciətlərin aparılmasına imkan yaradır. Sığortaolunan vətəndaş İcbari Tibbi Sığorta Şəhadətnaməsinin nömrəsini daxil etməklə müayinə tarixçəsi, müayinənin gedişi və nəticələrinə dair məlumatları əldə edir. “Səhiyyə informasiya idarəetmə sistemi” vasitəsilə icbari tibbi sığortanın tətbiqində iştirak edəcək tibb müəssisələrinin İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Səhiyyə Nazirliyi ilə qarşılıqlı informasiya mübadiləsi təmin edilir. Sığortaolunanlar 6 aydan bir ümumi müayinələrə cəlb olunaraq, peyvənd təqvimi və dispanser nəzarəti barədə “Naxtel 4G” mobil rabitəsi üzərindən SMS vasitəsilə məlumatlandırılır.

İcbari tibbi sığortanın tətbiqi ilə bağlı görülən işlər haqqında ətraflı məlumat almaq və sakinlərin buna münasibətini öyrənmək üçün rayon Mərkəzi Xəstəxanasına yollandıq.

Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət müasirtipli xəstəxanada çalışan tibb personalla, onların gündəlik iş rejimi ilə yaxından tanış olduq. Həkimlər, feldşerlər, tibb bacıları yaradılan şəraitdən bəhrələnərək rayon sakinlərinin sağlamlığı keşiyində inamla dayanırlar. Çünki işlədikləri tibb müəssisəsi tamamilə dəyişib. Burada tibbin son nailiyyətləri hesab olunan ən müasir avadanlıqlar var. Sanki həkimin də xəstələrə münasibəti başqalaşıb, dəqiq desək, doğmalaşıb. Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinin təmin olunması, rayon Mərkəzi Xəstəxanasının işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması və fəaliyyətinin stimullaşdırılması məqsədilə Ali Məclis Sədrinin sərəncamı ilə bu səhiyyə müəssisəsinə publik hüquqi şəxs statusunun verilməsi, xəstəxana işçilərinin aylıq əməkhaqlarının 2018-ci il fevralın 1-dən 50 faiz artırılması kollektivdə böyük ruh yüksəkliyi, əzmkarlıq yaradıb.

Xəstəxananın baş həkimi Kəmalə İbrahimova ilə söhbət zamanı o qeyd etdi ki, burada 61 nəfərlik tibb personalı çalışır. Xəstəxanada üç şöbə – Stasionar, Poliklinika və Təcili yardım şöbələri fəaliyyət göstərir. Səhiyyə müəssisəsində, həmçinin yoluxucu xəstəliklər, pediatriya, doğuş və ginekoloji, cərrahiyyə, terapiya bölmələri, laboratoriya, əczaxana, burun-boğaz-qulaq kabineti, fizioterapiya, manipulyasiya, elektrokardioqrafiya, stomatologiya, oftalmologiya, ultrasəslə müayinə, rentgen otaqları xəstələrin xidmətindədir. Xəstəxanada cərrahiyyə əməliyyatlarının aparılması üçün hər cür şərait vardır, Təcili yardım şöbəsi müasir avadanlıqları olan üç maşınla təmin edilib. Həkimlərdən Əli Əliyev, Ərrəhman Nəcəfov, feldşer Elvin Sultanov, tibb bacıları Nazirə Zamanova, Mahirə Hacıyeva və başqaları xəstələrin şəfa tapmaları üçün səy və bacarıqlarını əsirgəmirlər.

Burada 15 mindən çox adama səhiyyə xidməti göstərildiyini bildirən baş həkim Kəmalə İbrahimova əhalinin müayinəyə cəlb edilməsində maarifləndirmə işinin əhəmiyyətini xüsusi vurğuladı. O qeyd etdi ki, insanların vaxtında həkimə müraciət etmələri və ya vaxtaşırı tibbi müayinədən keçmələri bir çox xəstəliyin qarşısının alınmasında mühüm rol oynayır. Rayon sakinlərinin bu məqsədlə kütləvi müayinəyə cəlb edilməsi yoluxucu, irsi, onkoloji xəstəliklərin vaxtında aşkar olunmasına yol açır. Onların düzgün müalicəsi üçün tibb işçiləri öz səy və bacarıqlarını əsirgəmirlər.

Xəstəxanada ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması da dövlətin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə bu sahədə də mühüm tədbirlər həyata keçirilir.

Bu gün uşaq və yeniyetmələrin sağlamlığı barədə məlumatların “Vətəndaşların elektron sağlamlıq kartı sistemi”nə daxil edilməsi istiqamətində lazımi işlər görülür. Belə ki, rayonda yeni doğulmuş uşaqlar haqqında müvafiq məlumatlar internet vasitəsilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə ötürülür və elektron sağlamlıq kartlarının verilməsi işi sistemli şəkildə davam etdirilir. Xəstəxananın həkimləri və orta tibb işçiləri üçün səhiyyənin aktual məsələlərinə dair müntəzəm seminarlar keçirilir.

Xəstəxananı gəzdikcə müasir tələblərə cavab verən laboratoriya, biokimyəvi və yoluxucu xəstəliklərin müayinəsini aparmaq üçün müasir tibbi cihazlar, həmçinin stomatoloji qurğu, ultrasəs aparatı, rentgen, fizioterapiya avadanlıqları ilə xəstələrə yüksək tibbi xidmət göstərildiyinin şahidi olduq. Onu da öyrəndik ki, xəstəxanada iki səyyar həkim briqadası fəaliyyət göstərir. Həmin briqadalar tez-tez rayonun müxtəlif ərazilərində olur, xəstələri yerindəcə müayinədən keçirir.

Söhbət əsnasında xəstəxananın baş həkimi ilk dəfə Sədərək rayonunda tətbiq edilən icbari tibbi sığortanın sakinləri çox sevindirməsindən, artıq onların bu xidmətdən yararlanmasından ürəkdolusu danışdı. Bildirdi ki, icbari tibbi sığortanın faydaları çoxdur. Belə ki, müasir səhiyyə xidmətlərində də bahalı müalicə və dərman vasitələrinin tətbiq olunması bəzi hallarda bir çox vətəndaşın bu xidmətlərdən istifadə imkanlarını məhdudlaşdırır. Digər tərəfdən, maddi səbəblərdən göstərilməyən tibbi xidmətlər səhiyyə işçisinin itirilmiş qazancı sayılır ki, bu da səhiyyəyə investisiya qoyuluşu və tibbi kadrların marağının artırılması baxımından arzuedilən hal deyil. Ona görə də tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və dolayısı ilə, vətəndaşların sağlamlığının qorunması baxımından icbari tibbi sığorta sisteminin tətbiqi ölkəmizdə və muxtar respublikamızda insan amilinə göstərilən böyük diqqətdir.

Baş həkim məlumat verdi ki, bu yaxınlarda Sədərək rayon Qaraağac kənd sakini 14 yaşlı İlkin Mehdiyevin müayinəsi ilə bağlı valideynləri rayon xəstəxanasına müraciət edib. Müayinə nəticəsində onda qaraciyər exinokokk kistası aşkar olunub. Xəstə Naxçıvan Muxtar Respublika Xəstəxanasına göndərilərək, onun üzərində uğurlu əməliyyat aparılıb. Göstərilən bütün tibbi xidmətlərin xərci İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən qarşılanıb.

Burada olarkən icbari tibbi sığortaolunan, müayinə və müalicə üçün xəstəxanaya üz tutan rayon sakinləri ilə görüşüb söhbətləşdik. Onlar icbari tibbi sığorta sisteminin tətbiqi ilə xəstəxanada göstərilən tibbi xidmətlərin keyfiyyətinin də



yüksəlməsindən minnətdarlıqla danışdılar.

Əkbər Kərimov bizimlə söhbətində bildirdi ki, xəstəxanaya tez-tez gəlir: “Biz qocalara qayğı gərəkdir, səhhətimizi nəzarətdə saxlamaq lazımdır. Həkim və tibb işçilərindən razıyam. Onların dava-dərmanından çox, şirin dilləri məni gümrah saxlayır”.

Sədərək kəndinin sayılıb-seçilən ağsaqqallarından Əli Ağayev dedi ki, xüsusilə biz yaşlı insanlar sağlamlığımıza bağlı gözlənilməz problemlərlə tez-tez rastlaşmalı oluruq. Sağlamlığımızın bərpa olunması üçün zəruri olan tibbi xidmətlərə çəkəcəyimiz xərclərin maddi durumumuzu ağırlaşdırmaması, ailə büdcəsinin qorunması üçün icbari tibbi sığorta bizə maddi dəstək verir.

Qaraağac kəndindən olan ziyalı Əmir Zamanov, Heydərabad qəsəbə sakini Cəmşid Abdullayev, həkimlərdən Əli Əliyev də söhbətimizə qoşularaq icbari tibbi sığorta sistemini sağlamlığımızın bərpası zamanı qarşılaşa biləcəyimiz maddi problemlərin həllinə kömək edən, eyni zamanda səhiyyənin maliyyələşdirilməsi məqsədilə tətbiq olunan mütərəqqi təcrübə kimi qiymətləndirdilər.

Xəstəxanada olduğumuz müddətdə bir daha yəqin etdik ki, muxtar respublikanın bu sərhəd bölgəsində yaradılan səhiyyə infrastrukturu, müasir tələblərə cavab verən tibbi avadanlıqlardan istifadə, ixtisaslı tibbi kadrların mövcudluğu icbari tibbi sığortanın tətbiqi üçün əlverişli zəmin yaradır. Bütün bunların nəticəsində isə Sədərəkdə hamı səhiyyə işçilərinə inanır və öz sağlamlığını onlara etibar edir. Həkimlər və tibb işçiləri isə bu işdə səy və bacarıqlarını əsirgəmirlər. Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Kəmalə İbrahimova söhbətinin sonunda dedi: – Bu şəraiti bizə dövlətimiz yaradıb. Gərək elə çalışaq ki, etimadı doğruldaq. Rayonumuzun səhiyyə işçiləri əhalidən öz şəfqətlərini əsirgəmir, bir xəstənin dərdinə dərman, bir yaralının yarasına məlhəm olmaqdan qürur duyurlar. Elə Hippokrat andı içəndə də bizim qayəmiz, amalımız insanların cansağlığı keşiyində dayanmaq olub.

Təbii ki, insanın əsas sağlamlıq təminatlarından biri də yaşayış səviyyəsinin yüksək olmasıdır. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən dövlət proqramları məhz bu məqsədə xidmət edir. Sərhəd bölgəsində yaşayan sədərəklilər də dövlət qayğısı ilə əhatələniblər. Hər bir sakin bu diqqət və qayğıdan razıdır. Çünki Sədərəkdə iqtisadi göstəricilərlə yanaşı, insan faktoru da qorunur, müdafiə edilir.

**Sərxan İSMAYILOV**

# *“Mühasibat uçotu”* kitabının təqdimatı olub





***Naxçıvan Dövlət Universitetində II Milli Mühasiblər Forumunda “Mühasibat uçotu” nominasiyası üzrə qalib olan “Mühasibat uçotu” adlı kitabın təqdimatı keçirilib.***

Tədbirdə giriş sözü ilə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov iqtisadiyyatın sürətli inkişafı, beynəlxalq münasibətlərin dərinləşməsi, iqtisadi inteqrasiya prosesinin geniş vüsət alması ilə xarici investorların Azərbaycan iqtisadiyyatına marağının artmasını bildirib, bunun nəticəsində mühasibatlıq haqda bir çox qanunların imzalanmasının ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyətindən danışıb.

Universitetin Mühasibat uçotu və maliyyə kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru Teymur Abbasov çıxışında qeyd edib ki, mühasibat uçotu maliyyə xüsusiyyətli hadisə və proseslə əlaqədar məlumatların toplanmasını, təsnifləndirilməsini, təhlil və şərh edilməsini öyrənən bir elmdir. Müasir dövr mühasibatlığının əsası 1973-cü ildə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə Komitənin yaradılması ilə qoyulub. Həmin qurum vasitəsilə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları hazırlanıb və dünyanın bir çox ölkələrində tətbiqinə başlanılıb. Bu dövr, əsasən, mühasibat uçotunun ümumqəbuledilmiş prinsiplərinin formalaşması ilə xarakterizə olunur. Yeni nəşrdə də bu sahənin bir sıra aktual məsələləri öz əksini tapıb.

Dünya iqtisadiyyatı və menecment kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru Ceyhun Mahmudov kitab haqqında məlumat verərək qeyd edib ki, 15 fəsildən ibarət olan nəşrin birinci fəslində mühasibat uçotunun mahiyyəti, tarixi inkişafı və təsərrüfat subyektlərinin formaları ilə bağlı məlumatlar öz əksini tapıb. Sonrakı fəsillərdə isə ardıcıl olaraq maliyyə hesabatlarının elementlərindən, hesablar və ikili qeydiyyat prinsiplərindən, pul vəsaitləri, debitor borclar, ehtiyatlar və maliyyə aktivlərinin uçotundan, uzunmüddətli maddi və qeyri-maddi aktivlərin uçotu və amortizasiyası metodlarından, xüsusi kapital, öhdəliklər, gəlirlər və xərclərin yaranması və uçot prinsiplərindən bəhs edilir. Daha sonra maliyyə hesabatlarının təhlili qaydaları göstərilib, sonuncu fəsildə isə praktik nümunələr əsasında daha geniş və əhatəli şəkildə maliyyə hesabatlarının hazırlanması mərhələləri izah edilərək müəssisələrin qarşılaşacağı çoxsaylı problemlərə toxunulub.

Kitabın müəllifləri “Cahan” Holdinq Şirkətlər İttifaqının Bakı şəhərindəki bazarlama xidmətinin maliyyə müdiri Elvin Həsənov, “Naxçıvanqaz” İstehsalat Birliyinin mühasibi Elvin Əlimərdanov çıxışlarında bildiriblər ki, dərs vəsaitindən iqtisadi təmayüllü ali təhsil müəssisələrinin tələbələri, magistrləri, müəllimləri, müəssisədə çalışan mühasiblər, auditorlar, iqtisadçılar və mühasibat uçotu elminə maraqlı olan digər şəxslər istifadə edə bilərlər. Hər iki müəllif kitabın təqdimatının təşkilinə görə minnətdarlığını bildirib, qazandıqları mükafatın muxtar respublika elminə, təhsilinə göstərilən diqqət və qayğının təzahürü olduğunu vurğulayıb.

**Səadət ƏLİYEVA**

## Naxçıvan teatrının yaranma günü qeyd olunub



*Azərbaycan milli teatr tarixinə parlaq səhifələr yazmış qədim Naxçıvan teatrının yaradılmasından 135 il ötür. Dünən bu münasibətlə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tədbir keçirilib.*

Tədbiri Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq bu sənət ocağının keçdiyi inkişaf yolundan danışıb. Bildirib ki, Naxçıvan teatrı yarandığı gündən sağlam məfkurə, yüksək sənətkarlıq baxımından fərqlənən repertuar uğrunda mübarizə aparıb, mütərəqqi ideya və prinsiplər əsasında böyük inkişaf yolu keçib. Naxçıvan teatrının inkişafında Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Məhəmmədtağı Sidqi və başqa görkəmli ziyalılarımız əsl fədakarlıq nümunəsi göstəriblər.

Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında teatrlar diqqət və qayğı ilə əhatə edib. Məhz bu diqqətin nəticəsidir ki, 2008-ci ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi geniş şəkildə qeyd olunub, teatrın binası müasir layihə əsasında yenidən qurularaq 2012-ci ildə istifadəyə verilib.

Muxtar respublikamızda gənc aktyor nəslinin yetişməsi üçün də ardıcıl tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində aktyorluq sənəti ixtisası və Naxçıvan Musiqi Kollecində bədii yaradıcılıq işi ixtisasları kadr hazırlığı istiqamətində fəaliyyət göstərir. Bunun nəticəsidir ki, hər il istər dövlət, istərsə də xalq teatrlarının heyətinə onlarla gənc qatılır, yaratdıqları obrazlarla teatrsevərlərin qəlbinə yol tapır.

Nazir Naxçıvan teatrının 135 illiyi münasibətilə bütün teatrsevərləri təbrik edib, teatr xadimlərinə, teatrımıza, ümumilikdə, Naxçıvan mədəniyyətinin inkişafına göstərdiyi diqqət və qayğıya görə bütün mədəniyyət işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını bildirib.

Tədbirin sonunda tanınmış dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin "Əli və Nino" tamaşası göstərilib.

Əsər 1914-1920-ci illərdə Bakıda baş verən hadisələri tam dolğunluğu ilə özündə əks etdirir. Avropa və Asiyanın arasında yerləşən bir şəhərdə mədəniyyətlərin, sivilizasiyaların kəsişməsi, Azərbaycan xalqının tolerantlığı öz əksini tapıb.

Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevin quruluş verdiyi tamaşada teatrın tanınmış artistləri ilə yanaşı, gənc aktyorları da maraqlı obrazlar yaradırlar.

Tamaşanın quruluşçu rəssamı Əbülfəz Axundov dövrün koloritini canlandırmağa çalışıb. Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmanqulu Əhmədovun musiqi tərtibatı da hadisələrlə səsləşir. Tamaşada görkəmli bəstəkarlarımız Qara Qarayevin, Fikrət Əmirovun, Soltan Hacıbəyovun və başqalarının musiqisi ilə yanaşı, gürcü, tatar melodiyalarından da istifadə edilib.

**Əli RZAYEV**

## Kikboksinq üzrə peşəkar turnirə bu gün start veriləcək



*Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirlikləri, həmçinin Kikboksinq federasiyalarının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş kikboksinq üzrə beynəlxalq peşəkar turnir keçiriləcək.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçiriləcək turnirdə Türkiyə, Rusiya, Belarus, Ukrayna, Gürcüstan və Azərbaycan idmançıları ilə yanaşı, Naxçıvan kikboksinqçiləri də rinqə çıxacaqlar.

Dünən peşəkar turnir öncəsi mətbuat konfransı keçirilib. Konfransı giriş sözü ilə açan Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, Milli Məclisin deputatı Adil Əliyev bildirib ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan idman siyasəti bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Nəticədə, Azərbaycan artıq regionda və dünyada idman ölkəsi kimi şöhrət qazanıb. Təsadüfi deyil ki, bu gün ölkəmizdə beynəlxalq səviyyəli müxtəlif yarışlar, idman tədbirləri keçirilir. Bu, Azərbaycanın idman ölkəsi kimi tanınmasından və dünya dövlətləri arasında böyük nüfuz qazanmasından xəbər verir.

Adil Əliyev vurğulayıb ki, gündən-günə gözəlləşən Naxçıvan Muxtar Respublikasında da idman sahəsinə xüsusi qayğı və diqqət göstərilir. Muxtar respublikada mövcud olan ən müasir idman infrastrukturu burada nüfuzlu idman tədbirlərinin keçirilməsinə şərait yaradıb. Təbii ki, bunların hamısı qədim diyarın idman məkanı kimi böyük şöhrət qazanmasına səbəb olub. Kikboksinq üzrə beynəlxalq peşəkar turnirin də yüksək səviyyədə keçirilməsi üçün burada hər cür şərait var. Fürsətdən istifadə edərək turnir iştirakçıları adından muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk. Düşünürəm ki, bu gözəl məkanda bundan sonra da böyük turnirlər, yarışlar təşkil olunacaq, idmançılarımız qələbələr qazanmaqla bizləri sevindirəcəklər.

Konfransda çıxış edənlərdən Olqa Pavelenko (Ukrayna), Salih Kayıcı (Türkiyə), Koça Javakia (Gürcüstan), həmçinin Belarus, Rusiya, Azərbaycan Kikboksinq federasiyalarının nümayəndələri turnirin təşkilatçılarına minnətdarlıqlarını bildiriblər. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aparat rəhbəri Canməmməd Canməmmədov isə çıxışında qonaqları Naxçıvanda görməkdən məmnun olduqlarını bildirib və turnir iştirakçılarına uğurlar arzulayıb.

## Polis əməkdaşları arasında birincilik keçirilib

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş xidməti çoxnövçülük üzrə muxtar respublika birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən birincilikdə 15 komandanın heyətində 50-yə yaxın polis əməkdaşı mübarizə aparıb. Reqlamentə əsasən idmançılar 100 və 1000 metr məsafədə qaçış, turnikdən qalxaraq aşma hərəkətlərini yerinə yetiriblər. Birincilik fərdi və komanda şəklində keçirilib.

Yekun nəticəyə əsasən 100 metr məsafədə Vəli Şirəliyev (Mühafizə Polisi) finiş xəttinə hamıdan tez çatıb. 1000 metr məsafədə isə bu uğura Əli Əlizadə (Naxçıvan Dəmir Yolları Nəqliyyatı Polis Şöbəsi) imza atıb. Turnikə qalxıb aşmada isə Qismət Novruzov (Daxili Qoşunlar) hamıdan güclü olub.

Komanda hesabında Naxçıvan Dəmir Yolları Nəqliyyatı Polis Şöbəsinin komandası qalib adını qazanıb. Digər iki pillədə Naxçıvan Mühafizə Polisinin və Daxili Qoşunların komandaları qərarlaşıblar.

Sonda qaliblər mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Qədimliyi və müasirliyi ilə gözoxşayan Naxçıvan beynəlxalq idman tədbirlərinin keçirilməsi üçün ideal məkandır

### *"Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalının iştirakçıları olmuş tanınmış şahmatçılar bu fikirdədirlər*

***Xəbər verdiyimiz kimi, mayın 1-i 10-u arası Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalı keçirilib. Festivalda 15 ölkədən 300-dən çox şahmatçı birincilik uğrunda mübarizə aparıb. Onlardan bir neçəsi ilə görüşüb həmsöhbət olduq. Müsahiblərimiz bizimlə öz təəssüratlarını bölüşdülər.***



***Nicat Məmmədov – "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalının "A" qrupunun qalibi, beynəlxalq qrossmeyster, Azərbaycan:*** – Festival yüksək səviyyədə təşkil olunmuşdu. Hər şey mükəmməl idi. Yaradılan şəraitə görə təşkilatçılara minnətdarlığımı bildirirəm.

Uzun müddət idi ki, Naxçıvana gəlməmişdim. Bu dəfə burada gördüklərim məni yaxşı mənada təəccübləndirdi. Buranın təmiz havası, sakitliyi, şəhərdəki parklar və yaşıllıqlar insanda xoş təəssürat yaradır. Muxtar respublikanın paytaxtında çoxsaylı idman obyektləri fəaliyyət göstərir. Onlar arasında Şahmat Mərkəzi mənim diqqətimi xüsusilə cəlb etdi. Bu mənada, Naxçıvan şahmatçılar üçün ideal məkandır.

Keçirdiyim bütün oyunlar mürəkkəb idi, çünki "A" qrupunda, demək olar ki, zəif oyunçu yox idi. Ağ fiqurlarla oynadığım oyunlardan fərqli olaraq qara fiqurlarla oynadığım oyunlar çətin keçdi. İsrailli qrossmeyster İlya Smirinə qarşı keçirdiyim oyunun xüsusilə çətin olmasına baxmayaraq, qalib gəlməyi bacardım, bu da mənim liderliyə yüksəlməyimə səbəb oldu. Bu festivalda ilk dəfədir, iştirak edirəm. Təşkilatçılıq yüksək səviyyədə olduğuna görə növbəti festivallarda da öz iradə və bacarığımı sınamağı düşünürəm.



***Oleq Korneyev – qrossmeyster, İspaniya:*** – İlk dəfə 1984-cü ildə şahmat yarışında iştirak etmək üçün Naxçıvanda olmuşdum. İkinci dəfə isə 2016-cı ildə təkrar gəldiyim zaman və ötən 32 il ərzində Naxçıvanda inanılmaz dəyişikliklərin olduğunu gördüm. Burada müasir yollar, binalar, gözəl parklar salınıb. Sanki şəhər yenidən qurulub. İnfrastruktur göz oxşayır. Naxçıvanın müasir Avropa şəhərindən seçilmir. Əksinə, məncə, bu şəhər daha təmizdir.

Açıq görünür ki, bu yenidənqurma prosesində tarixi abidələrin qorunmasına, onların bərpasına da xüsusi diqqət yetirilib. Yəni müasirliklə tarixilik arasında çox gözəl harmoniya yaradılıb. Hesab edirəm ki, bu, muxtar respublika rəhbərinin tarixi keçmişinizə olan böyük diqqətinin nəticəsidir. Bu sahəyə diqqət göstərilməsi, əslində, həm də dünyanın tarixi keçmişinə ehtiramdır. Çünki Naxçıvanın qədim sivilizasiyanın beşiyi olduğunu tarixçilər xüsusi qeyd edirlər. Bura bəşəriyyətin ana yurdudur.

Dünyanın bir çox yerlərində yarışlarda olmuşam. Amma buradakı qədər yüksək səviyyəli təşkilatçılığa, demək olar ki, rast gəlməmişdim. Şahmatçıların sağlam mühitdə mübarizə aparması, istirahəti, asudə vaxtlarının təşkili üçün burada hər cür şərait yaradılmışdı. Buna görə festivalın təşkilatçılarına minnətdarlığımı bildirirəm.



***Ehsan Gaem Məqamiv – qrossmeyster, İran:*** – Naxçıvan bu il İslam Mədəniyyətinin Paytaxtıdır və öyrəndim ki, həm də Azərbaycanın Gənclər Paytaxtıdır. Mən bu diyarı gördükdən sonra bir daha əmin oldum ki, ulu Naxçıvan buna layiqdir. Onu da qeyd edim ki, buranın çox gözəl təbiəti var, qədim Naxçıvan insanı valeh edir. Hər tərəf yaşıllıqlarla, gülkarlıqlarla əhatə olunub.

Naxçıvanda keçirilən beynəlxalq şahmat festivalında ilk dəfə iştirak edirdim. Burada bizim rahatlığımız üçün hər cür şərait yaradılmışdı. Bütün bunlara görə zəhməti olan hər kəsə minnətdaram. Qədimliyi və müasirliyi ilə seçilən Naxçıvanda bu cür yarışların keçirilməsi düşünürəm ki, burada yetişən yeni nəsil şahmatçıların təcrübəsinin daha da artmasına səbəb olacaq.

***Aleksandr Yevdakimov – beynəlxalq qrossmeyster, Rusiya:*** – Biz şahmatçılar üçün sakitlik və rahatlığın təmin olunması əsas məsələlərdən biridir. Naxçıvanda şahmatçıların rahatlığı üçün hər cür şərait yaradılmışdı.



Bu festivalda ilk dəfədir ki, iştirak edirdim. Bizimlə, demək olar ki, hər dəqiqə maraqlanırdılar. Bir sözlə, festival hər cəhətdən çox yüksək səviyyədə təşkil olunmuşdu. Bizə bu şəraiti yaradan, bu işdə əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm.

Keçirilən görüşlərdən sonra Naxçıvan şəhərini gəzirdim. Bu şəhərdə diqqətimi cəlb edən məqam o oldu ki, şəhər çox təmiz və abad, səliqə-sahmanlıdır. İnsanları isə qonaqpərvər və gülərüzdürlər.



***Kotronias Vasilios – qrossmeyster, Yunanıstan:*** – Naxçıvanda güclü şahmat məktəbi yaradılıb və görünən odur ki, bu idman növünə dövlət səviyyəsində kifayət qədər dəstək verilir. Burada çox sayda gənc şahmatçılar yetişdirilir. Düşünürəm ki, Naxçıvanda şahmat idman növünün böyük gələcəyi var.

Azərbaycanda ilk dəfə beş il bundan əvvəl Bakıda təşkil olunan şahmat yarışında iştirak etmişəm. İlk dəfədir ki, Naxçıvanda beynəlxalq şahmat festivalında iştirak edirdim. Bura gələnlərin çoxu dünyada tanınmış şahmatçılar idi. Bu da festivalın təşkilatçılığının yüksək səviyyədə olmasından xəbər verirdi.

Naxçıvan şəhəri "zəka oyunçuları" adlandırılan biz şahmatçılar üçün əlverişli məkandır, çünki burada təmiz hava, gözəl təbiət və sakitlik var. Naxçıvanın ictimai mühiti də insana xoş təsir bağışlayır.



***Serqey Tviyakov – qrossmeyster, Hollandiya:*** – Artıq beşinci dəfə idi ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivalında iştirak edirdim. Arzum budur ki, bu festivallar hər il keçirilsin və biz də məmnuniyyətlə burada iştirak edək.

Naxçıvanda təşkil olunan şahmat festivalında həmişə yüksək səviyyədə təşkilatçılıqla qarşılaşmışam. Burada biz şahmatçılar üçün çox gözəl şərait yaradılmışdı, bizə hörmət və diqqətlə yanaşırdılar. İstər oyunlarda iştirakımız, istərsə də istirahətimiz və rahatlığımız üçün lazım olan hər şey var idi.

Qeyd etmək istərdim ki, Naxçıvanın gözəl təbiəti, təmiz havası ilə yanaşı, həm də zəngin mətbəxi var. Bura turizmin inkişafı üçün çox əhəmiyyətli bir diyar kimi diqqətimi cəlb etdi.

**Tural AĞAYEV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 356